Ədəbiyyat QƏZETİ

# Xalq yazıçısı Kamal Abdullanın "Heydər Əliyev və multikultural təhlükəsizlik" kitabı nəşr edilib




Xalq yazıçısı, akademik Kamal Abdullanın "Heydər Əliyev və multikultural təhlükəsizlik" kitabı ulu öndərin 100 illik yubileyinə töhfə kimi arayaərsəyə gəlib. Haqlı olaraq vurğulanıb ki, Azərbaycan dövlət siyasətinin bu əhəmiyyətli, vacib sahəsinin formalaşdırılması Heydər Əliyevin siyasi tərcümeyi-halına daxildir. Xalq yazıçısı haqlı olaraq nəzərə çatdırır ki, multikultural təhlükəsizlik milli təhlükəsizliyin vacib elementidir və multikulturalizm modelini tətbiq edən dövlət üçün multikultural təhlükəsizlik böyük əhəmiyyətə malikdir. Müəllif bu sahədəki düşüncələrini görkəmli fikir adamları Çarlz Teylor, Mixail Nuaymən, Pol Dyumoçel və başqalarının təhlili xarakterli qənaətləri kontekstində diqqətə çatdırır, eyni zamanda ulu öndər Heydər Əliyevə istinad edir: "...Azərbaycan prezidenti kimi mən dilindən və dinindən asılı olmayaraq hər bir adamın, hər bir vətəndaşın hüquqlarının təminatçısıyam".

Təbii ki, ulu öndər prezidentliyi dövründə həyati əhəmiyyətli fikrinə sadiq qaldı və bu sahədəki təcrübəsini özündən sonrakı idarəçilik prosesinə mühüm miras kimi ərmağan etdi. Heç də təəccüblü deyil ki, ümummilli liderin bu uzaqgörən təşəbbüsü onun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevin istinad nöqtəsi oldu: "Təsadüfi deyil ki, Prezident İlham Əliyev qlobal və lokal çıxışlarında Azərbaycanda multikulturalizmin həyat tərzi və dövlət siyasəti olduğunu dönə-dönə bəyan edir. Prezident İlham Əliyev multikulturalizmi "alternativi olmayan, gələcək inkişaf üçün ən məqbul variant" kimi dəyərləndirməklə təkcə Azərbaycanda deyil, müasir dünyada multikurturalizm meyillərinin gücləndirilməsinin vacibliyini xüsusilə qeyd etmişdir..."

Azərbaycan Dillər Universiteti Multikulturalizm Mərkəzinin müdiri Loğman Rəşidzadə və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Analtika şöbəsinin müdiri Rəşad İlyasovun elmi redaktorluqları ilə nəşr olunan kitabda bir daha diqqətə çatdırılır ki, ümummilli lider Heydər Əliyevin ən böyük siyasi xidmətlərindən biri də ilk dəfə olaraq multikulturalizmi Azərbaycançılıq ideyasının tərkib hissəsi kimi təqdim etməsi idi. Və bu siyasət hazırkı şəraitdə uğurla davam etdirilir.

**H.Sərvaz**